***Ağqoyunlu şahına yaxşı məlum idi ki, Osmanlıların hazırlığı hücum haqqında divandakıların müfəssəl məlumatı var. Axrıncı qələbənin gətirdiyi inam ovqatı onların həm danışığında, həm də əhvallarında özünü açıq-aydın biruzə verirdi. Əlbəttə, Ağqoyunlu şahı çox istəyərdi ki, onları gözləyən gələcək təhlükələrdən də səltənəti uğurla keçirsin.***

***Bu mümkün olacaqdımı? Bax, buna Uzun Həsənin qəlbinin dərinliklərində inamı az idi. Çünki kəşfiyyat məlumatları əsasında bildikləri onu belə şübhələrə düşməyə vadar edirdi. Axı Sultan II Mehmet bu dəfəki müharibəni ölüm-qalım inadı ilə başlamaq qərarında idi. 200 min nəfərlik Osmanlı ordusunu artıq tam döyüş hazırlığı vəziyyətinə gətirməklə, Ağqoyunluların gözlərini qırmaq, qabaqcadan müxtəlif şayiələr buraxmaqla, onların qələbə ümidini öldürmək məqsədilə ötən savaşlardakı məğlubiyyətdən sınmadığını artıq Uzun Həsənə çatdırmışdı. Doğrudur, Sultan II Mehmet 200 minlik qoşununun hamısını Uzun Həsənin üzərinə gətirmək fikrində deyildi. Bu məqsədlə o, sonuncu hərbi müşavirəsində məsələni açıq qoymuşdu. Ya bütün ordu ilə Uzun Həsənin üzərinə gedib onu tamam məhv etmək, qazanılacaq qələbənin müqabilində isə Osmanlı civarlarının əsas qapılarını Qərb bədxahlarının üzünə açıq buraxmaq... Onlar da çoxdan gözlədikləri fürsəti fövtə vermədən bu əraziləri asanlıqla öz caynaqlarına keçirsinlər. Onda Sultan II Mehmetin baş vəziri başqa kimsənin dinmədiyini görüb ayağa durmuşdu.***

***- Sultanın ömrü uzun olsun, biz öz ölkəmizin təhlükəsizliyi naminə müharibəyə girmək istərkən, onu ikinci bir təhlükəyə ata bilmərik.***

***Sultan II Mehmet başını qaldırdı. Sədrəzəmini də, Osmanlı divanın digər üzvlərini də bir-bir süzüb, qəflətən qəzəbqarışıq bir hirslə dilləndi:***

***- Bəs təklifin nədir?***

***- Hökmdar sağ olsun, - baş vəzir özünəxas təmkinlə asta-asta danışığına davam elədi.***

# İKİ ŞAH, İKİ SULTAN

## (romandan parçalar)



***Hüseynbala MİRƏLƏMOV***

*(Əvvəli ötən saylarımızda)*

- Ötən döyüşdə biz Ağqoyunluların üzərinə 100 minlik ordu göndərmişdik. Doğrudur, Osmanlı əsgərləri igidliklə və inadla vuruşsalar da, bu döyüşdə biz gözlənilən nəticəni görə bilmədik. Bu o demək deyil ki, biz daha bir 100 minlik qüvvə ilə Ağqoyunluları darmadağın edə bilmərik.

Hökmdar baş vəzirin uzun danışmağından acıqlanmış kimi oldu.

- Bir az açıq danış.

Baş vəzir hökmdarın qəzəblənəcəyindən ehtiyat edib, sözünü kəsə elədi:

- Bəli, bəli, hökmdar, mən də elə qısaca demək istəyirəm...

Hökmdar gözünü ağartdı. Bu, o demək idi ki, daha səbir kasası daşır. Bu vəziyyəti görən baş vəzir iki dəfə udqundu. Bir az kəkələsə də, özünü ələ alıb, sözünün davamını gətirdi:

- 100 minlik ordu bəsdir. Düşünürəm ki, Uzun Həsən də axırıncı döyüşdən sonra qələbəsinə baxmayaraq, hələ özünə gəlməyib. Əgər özünə gəlməyibsə, daha biz nə üçün ehtiyat edək.

Bu sözləri baş vəzir birtəhər deyib qurtarsa da, Allaha yalvarırdı ki, Sultan II Mehmet söhbətin ağırlığını digər divan üzvlərinin, ya da hökmdarın yanında hörmətli olan sərkərdələrin üzərinə yönəltsin. Əslində, baş vəziri qorxudan başqa məsələ də var idi ki, bu da hökmdarın onun özünü döyüş meydanına göndərmək təhlükəsi idi. Baxmayaraq ki, hökmdar belə bir niyyəti olduğuna işarə vurmamışdı. Ancaq illərdən bəri Sultan II Mehmetə qulluq edən baş vəzir onun xasiyyətini yaxşı bilirdi. Bilirdi ki, hökmdar üçün vaxtı çatanda ətrafındakı kimsədən üzlüşmək üçün belə üsula əl atır. Qalib gələr, uğur gətirər lap yaxşı. Uğursuzluq təqdirində isə ən yaxşı halda onu mənsəbdən qovar. Edam edilmədiyinə isə belələri şükür eləyər.

Sultan II Mehmet isə baş vəzirin düşündüklərini xəyalından keçirsə də, Ağqoyunlularla haqq-hesabı qəti olaraq çürütmək üçün orduya özü başçılıq etmək niyyətində idi. Ona görə də divanda söhbəti heç dərinə çəkmədi. Özü söhbətə başladı:

- Biz baş vəzirin dediyi kimi Ağqoyunluların üzərinə 100 minlik ordu ilə gedə bilmərik. Ən əsası ona görə ki, onlar döyüşdə ölümü qorxu kimi yaxına buraxmırlar. Ağqoyunluların inadlı döyüşləri hökmdarlarına sədaqətləri ən çətin anda belə qaçmadan, geri çəkilmədən ölümü şərəflə qəbul etmələri bizə məlumdur. Bizdə isə bir qədər fərqlidir. Muzdla toplanmış qoşun hissələrimiz var ki, onlar son anda ölmək istəmir. Hətta silahlarını töküb dağ-dərəyə qaçır, döyüşdən yayınırlar. Demək, biz Uzun Həsənin üzərinə indi onun gözlədiyindən daha artıq qüvvə ilə getməliyik.

Sultan aram-aram danışdıqca, baş vəzir də onu həyəcanla izləyirdi. Göründə ki, təhlükə sovuşur, əhvalı düzəldi. Və arada müdaxilə etməyə də cəsarətləndi.

- Əlbəttə, doğrusunu hökmdar bilər.

Sultan yanakı baş vəzirə baxıb, onun müdaxiləsinə əhəmiyyət vermədi.

- Hə, biz qüvvələrimizdən bir qism - düşünürəm ki, 20 minlik bəs edər. Ölkənin hüdudlarında saxlayarıq. Kənardan müdaxilə olarsa, qabaqlarını alarlar. Biz isə müdaxiləyə qədər Uzun Həsənin işini bitirib, yenidən öz mövqeyimizdə Qərbdən gələn təhlükənin qarşısını almağa qayıdarıq.

Beləliklə, Sultan II Mehmetin hökmü ilə ölkənin civarlarını qorumaq üçün 20 minlik qoşun saxlanıldı. Uzun Həsənin üzərinə 180 minlik ordu ilə hücuma keçmək qərarlaşdı.

Bütün bunları elə Osmanlı divanın özündə olan Uzun Həsən tərəfdarı bir şəxs yaxın adamları vasitəsilə Ağqoyunlu hökmdarına çatdırmışdı. İndi Uzun Həsən Ağqoyunlu divanında üzərinə gələcək qüvvənin qədərini də bilirdi. Onların həm hərbi sursatları, həm də döyüş qabiliyyətləri haqqında Osmanlı divanına məlum olanlar döyüşü necə aparmağı ən vacib məsələ kimi qarşıya qoyurdu. Uzun Həsənə yaxşı məlum idi ki, o, Osmanlı qoşunun sayı qədər qüvvə toplaya bilməz. Əvəzində Uzun Həsən düşünürdü ki, xüsusi manevrlərlə Osmanlı qoşununu aldadıb, yenə tələyə salar.

Ağqoyunlu divanında hərbi müşavirədə iştirak edənlərin hər birində öz hökmdarına qəti bir inam var idi. Onlar inanırdılar ki, Uzun Həsənin iti ağılı, sərrast hərəkətləri bu döyüşdə də qələbəni təmin edəcək. Ancaq sən saydığını say... atalardan belə bir məsəl də qalıb.

Hökmdar keçən döyüşün xəyalında canlanmış mənzərəsini hələ də gözlərinin qabağında görürdü. Divandakılar öz sözlərini deyib bitirdilər və susdular. Uzun Həsən gördü ki, ətrafda sakitlikdir. Sağ əlini qaldırıb gözlərinin qabağında yellədi. Sanki bununla onu qapsamış ötən döyüşlərini qovub dağıtdı.

- Düşünürəm ki, bu dəfə Sultan Mehmet özü orduya başçılıq edəcək. Məlum olduğu kimi onun necə hiyləgər olduğunu hər birimiz bilirik. Üstəlik də onun da kifayət qədər döyüş təcrübəsi var. Bizim gücümüzün də nədə olduğunu bilir.

Uzun Həsənin oğlu Yaqub Mirzə yerində qurcalandı. Nəsə demək istəyirdi, amma, deyəsən, cəsarət edib dillənmədi. Bunu Uzun Həsən də sezdi.

- Bəlkə, Yaqub Mirzənin bir sözü var?

Yaqub Mirzə atasının etimadından fərəhləndi, ayağa durub ehtiramla baş əydi. Onunla üzbəüz əyləşmiş Xəlil Mirzəyə baxdı. Xəlil Mirzə də, əslində, gözünü ondan çəkmirdi. Xəlil Mirzənin də onu belə diqqətlə izləməsinin əmması vardı. O, istəmirdi ki, qardaşı Yaqub Mirzə belə bir vacib məclisdə ondan qabağa düşüb nəsə desin.

Xəlil Mirzə qalan qardaşların böyüyü idi. Onun da hakimiyyət iddiası var idi. Baxmayaraq ki, hələ bunu biruzə vermirdi. Yaqub Mirzə gözünü dolandırıb divandakıların hamısını nəzərdən keçirdi. Sanki ümumi razılıq hissi duydu və bundan sonra sözünə başladı:

- Mən belə başa düşürəm ki, Osmanlıların tüfəngçiləri bizdən çoxdu, topları da var. Biz süvarilərimizi ehtiyatda o qədər saxlayarıq ki, tüfəngçilərin yerini siyirmə qılınclar tutanda müdaxilə edərik. Bu da ilk qarşılaşmanın taleyini həll edər.

Oğlu Yaqub Mirzənin bu sözləri Uzun Həsəni çox fərəhləndirdi. Hətta daxilində bir kövrəklik də baş qaldırdı. Çünki onun bütün ümidi hərbi işi yaxşı bilən Yaqub Mirzəyə idi. İndi onun belə cəsarətli çıxışı atanın qəlbini fərəhlə doldurmuşdu.

Təbrizin isti yayı qora bişirəni ötürməkdə idi. Yayın istisində üzü cənuba tərəf ərazilərdə döyüş meydanı seçmək asan məsələ deyildi. Amma Uzun Həsən bilirdi ki, Osmanlıların əsas qüvvələri dağlıq ərazilərdən sərin yerlərdən toplanan adamlardan ibarətdir. Yayın istisində onların hərəkəti nisbətən çətin olacaqdı. Buna görə də Uzun Həsən döyüşü Təbrizdən bir qədər aralıda üzü cənuba tərəf daha isti ərazilərdə aparmaq qərarına gəldi.

- Qoy Osmanlılar qədərincə irəliləsinlər. Biz onları Murad dağının isti ətəklərində qarşılayarıq. Aldadıcı hərəkətlə Osmanlı qoşununu ilan kimi qovrulan dərələrə çəkərik. - Hökmdar sözünü dedi və dayandı. Kiminsə bir təklifi olub-olmamasını gözlədi.

Divanbəyi ayağa qalxdı:

- Hökmdar, mən bilirəm ki, Qara Yuluq Osmandan bəri Ağqoyunlular öz ölkələrini halallıqla idarə ediblər. Bizim hamımızın boynunda anamız Sara xatunun haqqı var. Biz bunu heç vaxt unuda bilmərik. Müharibə kəsilməmiş qovun kimi bir şeydir. Biz gərək döyüşə başlayanda da, döyüşdə də döyüşdən sonrakı vəziyyəti unutmayaq. Sizə də yaxşı məlumdur ki, Təbriz əhli Ağqoyunlu hökmdarını necə əziz tutur. Demək, son anda ölkənin hətta rəncbəri də yurdunu qorumaq üçün özü könüllü döyüşə atılar.

- Yaxşı bəs indi təklifin nədir?

- Hamımıza məlum olduğu kimi Sultan II Mehmetin çox böyük qüvvəsi var. Həm də gələn xəbərlərdən öyrənmişik ki, döyüşə özü başçılıq edəcək. Demək, biz də ona qarşı dura biləcək qüvvəyə qarşı durmalıyıq. Bizi qonşu ölkələr tərəfdən elə bir təhlükə gözləmir. Elə bu səbəbdən də bütün qüvvəmizi ona qarşı yönəltməliyik. Qoy mərdimazarın cəzasını Allah özü versin.

Hökmdar divanbəyinin sözlərini hörmətlə dinlədi. Amma onun axırıncı sözünün qabağında üzünə yayılmış təbəssüm gülüşə çevrildi. Handan-hana gülməyini dayandırıb dedi:

- Bizim əvəzimizdən Allah vuruşmayacaq ki, sən deyən mərdiməzarın cəzasını versin.

Divanbəyi sözünü geri götürmədi.

- Hökmdar haqlıdır, Allah da haqlı olanların tərəfində olur. Mən heç nə demirəm, qoy ulu Tanrı səltənətin ümidi olan oğullarını bu döyüşdə hifz eləsin.

- Hə, belə qərara gəldik ki, hazırlıq sarıdan vaxtımız azdır. Biz Osmanlıları nəzərdə tutduğumuz yerdən keçməmiş qarşılamalıyıq.

Yenə divanbəyi əlini uzun ağ saqqalına çəkib:

- Allah hökmdarımızın əməlinə rəvac versin, - dedi.

Hökmdar işarə verdi. Hamı ayağa qalxdı. Divan üzvləri Uzun Həsənin arxasınca böyük ziyafət otağına keçdilər. Yaqub Mirzə və Xəlil Mirzə Uzun Həsənin hərəsi bir tərəfində addımlayırdı.

*(Davamı var)*